**05.01.2022: xəbər**

**Meeting within Erasmus+ ECAR Project**

Co-funded by the
Erasmus+ Programme
of the European Union

On December 26-28, 2021, the next meeting of the Erasmus+ ECAR project, to which Khazar University is a partner, was held at Nakhchivan University. The purpose of the event was to discuss, evaluate the theoretical results obtained so far within the project and plan future activities.

Saida Sharifova, Dean of the Graduate School of Science, Art and Technology, represented Khazar University at the event, which was attended by rectors of Nakhchivan University, Nakhchivan State University and Nakhchivan Teachers' Institute, head of the National Erasmus Office, vice-rectors of Baku Business University, Azerbaijan State Pedagogical University, Baku Engineering University, Baku Higher Oil School, Azerbaijan State University of Culture and Art and Odlar Yurdu University.

At the meeting, the head of the National Erasmus Office Parviz Bagirov shared the international experience of the Rectors' Conference held within the Erasmus+.

Eshgin Bayramov, Vice Rector for International Relations of Baku Business University, spoke about the overall goals, targets, work plans, as well as local and foreign partners of the project. Gulshan Bayramova, Director of the University-Industrial Cooperation Department of the same university, project coordinator, delivered a speech on the results of research conducted in the field of cooperation, communication, and networking in Azerbaijani higher education institutions.

Vice-rectors of other universities also stressed the need for closer cooperation between universities in the modern education system, where new challenges are observed, and expressed confidence that the project will yield positive results in this direction.

**Erasmus+ ECAR layihəsi çərçivəsində görüş**

Co-funded by the Erasmus+ Programme of the European Union

2021-ci il dekabrın 26-28-də Naxçıvan Universitetində Xəzər Universitetinin tərəfdaş olduğu Erasmus+ ECAR layihəsinin növbəti görüşü keçirildi. Tədbirin məqsədi indiyə qədər layihə çərçivəsində əldə olunan nəzəri nəticələrin müzakirəsi, qiymətləndirilməsi və gələcək fəaliyyətinin planlaşdırılması idi.

Naxçıvan Universiteti, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu rektorlarının, Milli Erasmus Ofisinin rəhbərinin, Bakı Biznes Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan  Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Odlar Yurdu Universiteti prorektorlarının  iştirakı ilə keçən tədbirdə Xəzər Universitetini elmi işlər üzrə prorektor Səidə Şərifova təmsil edirdi.

Görüşdə Milli Erasmus Ofisinin rəhbəri Pərviz Bağırov Erasmus+ çərçivəsində həyata keçirilən Rektorlar Konfransı barəsində beynəlxalq təcrübəni bölüşdü.

Bakı Biznes Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Eşqin Bayramov çıxışında layihənin ümumi məqsədi, hədəfləri, iş planları, eləcə də yerli və xarici tərəfdaşları barəsində məlumat verdi. Həmin universitetin Universitet-sənaye əməkdaşlığı departamentinin direktoru, layihənin koordinatoru Gülşən Bayramova Azərbaycan ali təhsil müəssisələrində əməkdaşlıq, əlaqə və şəbəkələşmə sahəsində aparılmış tədqiqatın nəticələrinə dair hesabatla çıxış etdi.

Digər universitetlərin prorektorları da çıxış edərək, yeni çağırışların müşahidə olunduğu müasir təhsil sistemində universitetlərin daha sıx əməkdaşlığının zəruriliyini və layihənin bu istiqamətdə müsbət nəticələr verəcəyinə əminliklərini vurğulayıblar.

